Scientific News of Azerbaijan State
Academy of Physical Education and Sport

SPORT SCİENCE JOURNAL
Vol 3 Issue 2, June 2018

*İcmal*

# Yüksək dərəcəli kişi voleybolçuların texniki-taktiki fəaliyyətlərinin effektivliyinin tədqiqi (amplua–əlaqəçi mövqeyində oynayan oyunçular)

*Hacıyev Z.C., Sultanova S.O., Əliyev S.Y., Qurbanova F.A.*[1]
[1]*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası*

**Nəşr tarixi**
Qəbul edilib 1 mart 2018
Dərc olunub: 5 iyun 2018
© 2018 ADBTİA. Bütün hüquqlar qorunur.

**Açar sözlər:** oyun texnikası, texniki fəndlər, əlaqəçi oyunçu, texniki-taktiki fəndlərin effektliyi, texniki-taktiki fəaliyyət, yüksək liqa, müsbət və mənfi şifrələmə.

Yüksək dərəcəli voleybolçuların yarış fəaliyyəti böyük fiziki və emosional gərginliklə müşahidə olunur. Voleybolçunun yüksək məşq səviyyəsi ilə yanaşı, oyun zamanı şəxsi və kollektiv texniki-taktiki fəaliyyətinin (TTF) səmərəliliyi ilədə müəyyən edilir. Ona görə də rəsmi yarış şəraitində, əlaqəçi (“setter”, “svyazuşiy”, “pasuşiy”, “razvodyaşiy”, “pasör”, “top paylayan” və s.) mövqeyində oynayan yüksək dərəcəli kişi voleybolçuların texniki-taktiki fəndlərinin icrasının səmərəliliyinin öyrənilməsi və təhlili problemi olduqca aktual sayılır.(6)

Məhz buna görə də biz, qarşımıza məqsəd qoyduq ki, onların effektliyinin və sabitliyinin səviyyəsini rəsmi yarış şəraitində tədqiqat işinin köməyi ilə müəyyənləşdirək. Respublikamızda “Yüksək Liqada” iştirak edən "Lokomotiv", "Sərhədçi", "Neftçi", “MOİK”, “U-18”, ”Ekspres” və “Naxçıvan” və s. komandalarının 20 nəfər əlaqəçi oyunçularının rəsmi yarışlarda oyunlarını müşahidə etdik. Ümumiyyətlə 3, 4və 5 hissədən ibarət 24 görüşü nəzərdən keçirtdik. Müşahidə etdiyimiz oyunçularkomandada əlaqəçi mövqeyində oynayan oyunçulardır.Bu vəzifəni yerinə yetirən oyunçular daha çox həcmdə fiziki iş görürlər.Əlaqəçi oyunçunun texniki-taktiki fəaliyyətlərin effektivliyinin qiymətləndirilməsi daha mürəkkəb olur belə ki, onların oyun funksiyaları çox spesifik olur. Əlaqəçi oyunçuda az-az hücum, blokqurma və topun daxil edilməsi fəaliyyəti ilə yanaşı, əsas funksiyası- qeyri-standart və effektiv texniki-taktiki fəaliyyət hesabına ikinci ötürmələrdir. Ona görə ki, bunların əsas funksiyları adında da məlum olduğu kimi ikinci ötürmələri yerinə yetirərək komandanın hücumunu təşkil etmək, lazım gəldikdə isə blokqurma və hücumu yekunlaşdırmaqdır.(1)

Yüksəkdərəcəli voleybolçuların oyun zamanı texniki-taktiki fəaliyyətlərinin effektivliyini qiymətləndirmək üçün, uğurla icra olunan fəndlərin sayını fiksə edən müxtəlif yanaşmalardan geniş istifadə olunur-xal qazanma və səhvlər-xalı uduzma (Y.D.Jeleznyak, A.V.İvoylov, 1991; M.P.Spirin həmmüəllif olaraq). Bu qiymətləndirmə müasir voleybolda müxtəlif amplualı voleybolçuların: birinci-ikinci temp oyunçuların, əlaqəçi,Libero və çarpaz oyunçularının yarışlarda texniki-taktiki fəaliyyətlərinin əsas effektivliyini əldə edib.(4)

Texniki-taktiki fəaliyyətlərin icrasının effektivliyinin qiymətləndirmə sisteminin variantlarından biri, alman voleybol federasiyasının (M.Fidler, 1972) işləyib hazırladığı hər bir texniki fəndin iki kodlu



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/ licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

qiymətləndirilməsidir, burada “müsbət” (+)- uğur və mənfi (-) – səhv. Növbəti üç kodlu oyun analizinin aparılmasını (A.V.İvoylov,1981) təklif edilib. Bu halda üçüncü kod “sıfır” (0) kimi qeyd olunur və top oyunda qalan zaman bütün fəaliyyəti özündə birləşdirir, yəni müsbət və mənfi arasında qiymətləndirilir, lakin xalı nə udur, nə də uduzur.(4)

Müşahidə, təhlil etmə və oyunçuların effektliyinin və sabitliyinin qiymətləndirilməsi A.V. İvaylovun şifrələməsi ilə aparıldı. Şifrələmə oyuna daxil edilən topun qəbulu, hücum zərbəsinin və blokqurmanın yerinə yetirməsi və ən əsası da ikinçi ötürmələrin yerinə yetirilməsi istiqmatində aparıldı. Əgər əlaqəçi oyunçu topu qəbul edib dəqiq hücumçu oyunçunun çıxdığı zonaya yönəldirdisə onda "+" müsbət işarəli şifrə verilirdi, əgər top qəbul olunarsa, ancaq hücumçu oyunçunu çıxdığı zonaya çatdırılmırdısa onda oyunçuya" o " verlirdi.Top oyunda saxlanılıb. Əgər əlaqəçi oyunçu topu qəbul edəndə səhvə yol verirdisə onda ona " - " mənfi işarəli şifrəverilirdi. Bəzən də topun çox çətin şəraitdə qəbulu və oyunda saxlamasına baxmayaraq əlaqəçi oyunçuya " + " işarəli şifrə verilirdi.

Azərbaycan respublikasının çempionatında, yüksək liqada iştirak edən 20-nəfər kişi voleybolçular müşahidə edildi. Bəzi hallarda ayrı-ayrı idmançılar bir neçə oyunlarda fərdi olaraq müşahidə olundular. Ümumilikdə isə voleybolçular 24-görüşdə müşahidə olundu. Əlaqəçi mövqeyində oynayan kişi voleybolçuların texniki-taktiki fəaliyyətləri təhlil edildi.

Ümumiyyətlə qeyd etməliyik ki, bütün oyun ərzində komandanın hücumda taktiki əməliyyatlarını əlaqəçi oyunçu həyata keçirir. Əlaqəçi oyunçu öz komandasının və eləcə də rəqib komandanın hal-hazırda hansı taktiki əməliyyat üzrə oynayacağını müəyyən edir. Yəni bu o deməkdir ki, taktiki əməliyyatabir başa əlaqəçi oyunçu özü rəhbərlik edir. Sözsüz ki, əlaqəçi oyunçu bütün ötümə növlərini (yerindən ötürmə, tullanmada ötürmə, hündür və üzun ötürmə, alçaq və orta ötürmə, sürətli və sürətlənmiş ötürmə və s.) mükəmməl yerinə yetirməlidir.(5)

Oyundan əvvəl əlaqəçi oyunçu rəqibin müdafiə sistemi ilə tanış olmalıdır. Bura aiddir blokun təşkili və arxa zonada oyunçuların düzülüşü. Hücumu I və II templə daha yaxşı uzlaşdırmaq üçün oyun zamanı əlaqəçi oyunçu daim tez dəyişən oyun vəziyyətlərini təhlil edir.(3)

Komandanın qalib gəlməsi üçün əlaqəçi oyunçu üç əsas məsələyə daim xüsusilə diqqət yetirməlidir.

1. Öz mərkəz oyunçusunu (I temp) geniş diopazonlu sürətli ötürmələrlə təmin etməyi bacarmalıdır, hətta top əlaqəçi oyunçuya dəqiq çatmadıqda belə.
2. Top əlaqəçi oyunçuya çatmadıqda o, topu torun kənar hissələrinə doğru II və VI zonalara sürətli ötürməyi bacarmalıdır.
3. Xal qazanmaq üçün komandaya maksimum dərəcədə blokda, hücum zərbəsini vurmaqda və servisdə kömək etməyi bacarmalıdır.(6)

Müasir voleybolda əlaqəçi oyunçu üçün model aşağıdakı kimi təqdim oluna bilər.

Əlaqəçi oyunçuların fiziki inkişaf və fiziki hazırlıqla bağlı orta statistik məlumatlar ( Dünya çempionatı 2010).



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/ licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

| | Yaşı | Boyu (sm) | Çəkisi (kq) | Hücum zərbəsinin hündürlüyü (sm) | Blok hündürlüyü (sm) |
|---|---|---|---|---|---|
| Dünya çempionatı (kişilər) İtaliya (orta göstərici) | 27,9 | 191,16 | 85 | 336 | 319,3 |
| Dünya çempionatı (qadınlar) Yaponiya (orta göstərici) | 24.7 | 179,3 | 68,4 | 294,9 | 283,3 |
| Dünyanın ən yaxşı kişi əlaqəçi oyunçusu Vermiglio Valerio (İTA) | 34 | 190 | 83 | 342 | 320 |
| Dünyanın ən yaxşı qadın əlaqəçi oyunçusu Vei Qiuyue (Cin) | 22 | 182 | 65 | 305 | 300 |




- **Servis** **5-7%**
- **Hücum zərbəsi** **50-55%**
- **Blok** **11-13%**
- **Rəqibin səhvləri** **25-30%**

Əlaqəçi oyunçuların icra etdikləri TTF üzrə ümumi sayı, üç setdə qalib olduqları oyunda 82 qəbul edildi, onların kodları: "müsbət" + 61%, "mənfi" - 39% oldu. TTF üzrə obyektivliyinin qiymətləndirilməsinin şkalasına əsasən aparılan oyunçulardan biri orta səviyyədən yüksək, üçü isə orta nəticə göstərdi. Əlaqəçi oyunçuların icra etdikləri TTF üzrə ümumi sayı üç setdə uduzduqları oyunda 86 qəbul edildi, onlardan "müsbət" +33,7 %, "mənfi" - 66,3% oldu. TTF üzrə obyektivliyinin qiymətləndirilməsinin şkalasına əsasən ikisi orta səviyyədən yüksək, üçü isə orta səviyyədən aşağı nəticə göstərdi (Cədvəl 2).

Oyunçuların texnini-taktiki fəaliyyətini təhlil edib qiymətləndirilməsindən əvvəl, biz məşqçilərin köməyi ilə tədqiqat işinin təcrübəsinə əsaslanaraq texniki-taktiki üsulların effektliyinin səviyyəsini beş bölməli cədvəlini tərtib etdik.(6)

| Texniki fəndlərin yerinəyetirilmə effektliliyin səviyyəsi | Göstəricilər %-lə |
|---|---|
| 90 -75 | Yüksək səviyyə |
| 74 - 60 | Orta səviyyədən yüksək |
| 59 - 45 | Orta səviyyə |
| 44 - 30 | Orta səviyyədən aşağı |
| 29 - 15 | Aşağı səviyyə |



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

Scientific News of Azerbaijan State
Academy of Physical Education and Sport

SPORT SCİENCE JOURNAL
Vol 3 Issue 2, June 2018

Əlaqəçi oyunçuların texniki-taktiki fəaliyyətlərinin effektliyinin faiz üzrə göstəriciləri
Cədvəl 2

| Şifrələr | Texniki fəndlər | | | | | Göstəricilərin yekunu |
|---|---|---|---|---|---|---|
| | Topun oyuna daxil edilməsi | Topun qəbulu | İkinci ötürmə | Hücum zərbəsi | Blokqurma | |
| | 3 hissədə (fəndlərin yerinə yetirilməsi 82 dəfə) UDULMUŞ OYUN. | | | | | |
| + | 4<br>26.7% | 3<br>33.3% | 40<br>83.4% | 1<br>50% | 2<br>25% | 61% |
| - | 3<br>20% | 3<br>33.3% | 4<br>8.3% | - | 4<br>50% | 17% |
| 0 | 8<br>53.3% | 3<br>33.4% | 4<br>8.3% | 1<br>50% | 2<br>25% | 22% |
| | 4 hissədə (fəndlərin yerinə yetirilməsi 108 dəfə) UDULMUŞ OYUN. | | | | | |
| + | 6<br>30% | 5<br>33.3% | 45<br>80.4% | 1<br>20% | 4<br>33.3% | 56.5% |
| - | 4<br>20% | 4<br>26.7% | 5<br>8.9% | -2<br>40% | 5<br>41.7% | 18.5% |
| 0 | 10<br>50% | 6<br>40% | 6<br>10.7% | 2<br>40% | 3<br>25% | 25% |
| | 5 hissədə (fəndlərin yerinə yetirilməsi 126 dəfə) UDULMUŞ OYUN. | | | | | |
| + | 7<br>28% | 5<br>31.2% | 50<br>78.2% | 1<br>16.7% | 4<br>26.7% | 53,1% |
| - | 6<br>24% | 5<br>31.2% | 7<br>10.9% | 2<br>33.3% | 7<br>46.6% | 21,5% |
| 0 | 12<br>48% | 6<br>37.6% | 7<br>10.9% | 3<br>50% | 4<br>26.7% | 25,4% |



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/ licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

Müsbət "+" işarəli şifrənin göstəriciləri 1-ci cədvələ müvafiq olaraq orta və ortadan yüksək səviyyəni göstərirdi.

Mənfi şifrənin yaxın göstəricilərinə cədvəldə qeyd olunmuşdur. Voleybolçuların texniki-taktiki effektliyinin qiymətləndirilməsi üçün üç, Üç setdən ibarət udulmuş oyunlarda ümumilikdə 82 TTF icra olunmuşdu. Bunlardan dörd və beş hissədən ibarət oyunlarını müqayisəli analizini keçirtdik. mənfi şifrəli 20 TTF-18,5% olmuşdu. Beş setdə udulmuş oyunlarda isə 126 TTF icra olunmuşdu. Bunlardan müsbət şifrəli 67 TTF-

Cədvəl 3

| Şifrələr | Texniki fəndlər | | | | | Göstəricilərin yekunu |
|---|---|---|---|---|---|---|
| | Topun oyuna daxil edilməsi | Topun qəbulu | İkinci ötürmə | Hücum zərbəsi | Blokqurma | |
| | 3 hissədə (fəndlərin yerinə yetirilməsi 82 dəfə) UDUZULMUŞ OYUN. | | | | | |
| + | 3<br>20% | 2<br>22,2% | 32<br>66.7% | 1<br>50% | 1<br>12.5% | 47.6% |
| - | 5<br>33.3% | 4<br>44,4% | 12<br>25% | - | 5<br>62.5% | 31.7% |
| 0 | 7<br>46.7% | 3<br>33.4% | 4<br>8.3% | 1<br>50% | 2<br>25% | 20.7% |
| | 4 hissədə (fəndlərin yerinə yetirilməsi 108 dəfə) UDUZULMUŞ OYUN. | | | | | |
| + | 4<br>20% | 3<br>20% | 34<br>60.7% | 1<br>20% | 2<br>16.7% | 40.7% |

müsbət şifrəli 50 TTF-61%, mənfi şifrəli 14TTF-17% olmuşdu. Dörd setdən ibarət oyunlarda cəmi 108 TTF voleybolçular yerinə yetirmişdilər. Müsbət şifrəli 61 TTF-56,5%, 53,1%, mənfi şifrəli 27 TTF-21,5% qeydə alınmışdı.



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/ licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| - | 8<br>40% | 7<br>46.7% | 15<br>26.8% | 3<br>60% | 7<br>58.3% | 37% |
| 0 | 8<br>40% | 5<br>33.3% | 7<br>12.5% | 1<br>20% | 3<br>25% | 22.3% |
| | 5 hissədə (fəndlərin yerinə yetirilməsi 126 dəfə)<br>UDUZULMUŞ OYUN. | | | | | |
| + | 5<br>20% | 3<br>18.8% | 38<br>59.4% | 1<br>16.7% | 3<br>20% | 39.7% |
| - | 11<br>44% | 8<br>50% | 21<br>32.8% | 3<br>50% | 9<br>60% | 41,3% |
| 0 | 9<br>36% | 5<br>31.2% | 5<br>7.8% | 2<br>33.3% | 3<br>20% | 19% |

Üç setdən ibarət uduzulmuş oyunlarda ümumilikdə 82 dəfə TTF icra olunmuşdu. Bunlardan müsbət şifrəli 39 TTF-47.6%, mənfi şifrəli 26 TTF-37% olmuşdu. Dörd setdən ibarət uduzulmuş oyunlarda cəmi 108 TTF voleybolçular yerinə yetirmişdilər. Müsbət şifrəli 44 TTF -40.7%, mənfi şifrəli 40 TTF 37% olmuşdu. Beş setdə uduzulmuş oyunlarda isə 126 TTF icra olunmuşdu. Bunlardan müsbət şifrəli 50 TTF 39,7%, mənfi şifrəli 52 TTF 41,3% qeydə alınmışdı.

Yuxarıda göstərilənlərə əsaslanaraq, Azərbaycan respublikasının yüksək liqada iştirak edən kişi komandalarının məşqçilər heyyətinə təklif olundu ki, texniki-taktiki hazırlıq üzrə təlim-məşq prosesinə bəzi düzəlişləri tətbiq etmək zəruridir.

## Ədəbiyyatlar:

1. Беляев А.В. Обучение технике игры в волейбол и её совершенствование-М. ВФВ, 1995.
2. Беляев А.В., Савин М.В. Волейбол: Учебник для институтов и академий физической культуры-М: СпортАкадем-Прессе,2006.
3. Фомин Е.В., Булыкина Л.В., Суханов А.В. Технико-тактическая подготовка волейболистов. Москва-2017.
4. Железняк Ю.Д., Ивойлов А.В. Волейбол: Учебник для институтов физической культуры-М.: Физкультура и спорт.-1991.
5. Ağayev O.M., Qədəşov E.N. Voleybol. Dərslik, Bakı, 2003.
6. Марков К.К Руководство тренера по волейболу. Иркутск, 2000.



© The Author(s) 2018. Published by Science News of Academy of Physical Education and Sport. This is an Open Access article distributed under the terms of the Creative Commons Attribution Non-Commercial License (http://creativecommons.org/licenses/by-nc/4.0/), which permits non-commercial re-use, distribution, and reproduction in any medium, provided the original work is properly cited.